# Payızlıq əkinlər üçün şum prosesi yekunlaşır



Rayonda payızlıq əkinlər üçün şum prosesi davam edir. Ümumilikdə, bu il 20100 hektar sahədə payızlıq şum proqnozlaşdırılır. Oktyabrın 4 dək 18400 hektar sahədə şum aparılıb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 1200 hektar artıqdır. Artıq payızlıq əkin üçün proqnozlaşdırılan sahələrin 91.54 faizi şumlanıb.

Qəbələ Dövlət Aqrar İnkişaf Mərkəzindən müxbirimizə bildiriblər ki, ümumilikdə, şum prosesinə 45 traktor cəlb olunub. Şum prosesinin yaxın günlərdə yekunlaşacağı gözlənilir.

“Qəbələ”

# Bağlarda məhsul yığımı başa çatır



Rayonda fındıq yığımı başa çatmaq üzrədir. Artıq bağlardan 7200 ton məhsul toplanılıb. Fındıq yığımı davam edir

Rayon dövlət aqrar inkişaf mərkəzindən müxbirimizə bildirilib ki, Qəbələdə fındıq bağlarının sahəsi artıq 6500 hektara çatdırılıb. Bağların 4800 hektarı bar verəndir. Nic, Bum qəsəbələrində, Mirzəbəyli, Mıxlıqovaq, Soltannuxa, Çuxur Qəbələ, Kiçik Pirəli kəndlərində məhsul yığımı daha mütəşəkkil aparılır.

Cari mövsümdə bağlardan 9000 tondan çox fındıq tədarük olunacağı gözlənilir.

“Qəbələ”

# Tütünçülərimiz bu günədək 510 ton tütün tədarük ediblər



Qəbələ rayonunda artıq dördüncü ildir ki, tütün becərilir. Tütünçülüyün inkişafı rayonda yeni iş yerlərinin açılması, əhalinin pul gəlirlərinin artması baxımından da böyük əhəmiyyət kəsb edir. Məhz buna görə də tütünçülüklə məşğul olan kəndlərin sayı ildən-ilə artır.

Hazırda tütünçülük sahəsində rayon üzrə 116 dək sakin çalışır. Artıq bu ildən tütün əkən kəndlərin sırasına Çuxur Qəbələ, Məlikli, Siləyli və Mollaşıxalı kəndləri də qoşulub.

Cari ildə tütünçülər ümumilikdə 75 hektar sahədə bol məhsul yetişdiriblər. Hazırda təsərrüfatlarda tütün yığımının qızğın çağıdır.- Təsərrüfat sahibləri tütünü vaxtında və itkisiz toplamaq üçün əllərindən gələni əsirgəmirlər.

Bu vaxta qədər fermerlərimiz tərəfindən 510 ton yaş tütün tədarük olunub.

“Qəbələ”

# Bol məhsul yetişdirilib

Fermerlərimiz bu il 3838 ton tərəvəz istehsal ediblər

Rayonun torpaq mülkiyyətçiləri builki mövsümdə 408 hektar sahədə tərəvəz yetişdiriblər. Təsərrüfatlarda tərəvəz məhsullarının yığımı artıq başa çatıb. Fermerlər bu il 3 min 838 ton tərəvəz istehsal ediblər. Hər hektarın orta məhsuldarlığı 94,1 sentner olub.

Rayon statistika idarəsindən müxbirimizə verilən məlumata görə kartof yığımı da başa çatmaq üzrədir. Bu il rayonda 520 hektar sahədə kartof əkilib. İndiyədək 503 hektarın məhsulu yığılıb, 4 min 693 ton kartof tədarük olunub.



Bundan əlavə, torpaq mülkiyyətçiləri indiyədək 421 hektar üzüm bağından 1609 ton məhsul toplayıblar. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 446 ton çoxdur. Təsərrüfatlarda üzüm yığımı davam edir.

Yaxın günlərdə rayonda şəkər çuğunduru yığımına da başlanılacaq.

“Qəbələ”

# Süni mayalandırılan inəklərdən 3303 baş cins buzov alınıb



Heyvandarlıq Qəbələ rayonunda kənd təsərrüfatının aparıcı sahələrindəndir. Son illər heyvandarlar süni mayalandırma ilə inəklərin cins tərkibinin dəyişdirilərək daha məhsuldar heyvanlarla əvəz edilməsində çox maraqlıdırlar.

Rayon statistika idarəsindən müxbirimizə bildirilib ki, bu ilin 9 ayında 6538 baş inək və düyə süni mayalandırılıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 710 baş çoxdur.

Cari ilin 9 ayında süni mayalandırma ilə 3303 baş məhsuldar cins buzov əldə edilib.

«Qəbələ»

# Heyvandarlar ilin ötən dövrünü yaxşı göstəricilərlə başa vurublar



Qəbələ rayonunun heyvandarları cari ilin ötən dövrünü uğurla başa vurublar. Belə ki, istər mal-qaranın və davarların baş sayı, istərsə də bütün göstəricilər üzrə məhsul istehsalı keçən ilin müvafiq dövrü ilə müqayisədə artıb.

Rayon statistika idarəsindən müxbirimizə bildirilib ki, ilin 9 ayında diri çəkidə ət istehsalı 3452.5 tona çatıb. Həmin dövrdə 31490.8 ton süd, 17220 min ədəd yumurta, 413.2 ton yun istehsal olunub. Keçən ilin müvafiq dövrü ilə müqayisədə süd istehsalı 69.1 ton çoxalıb.

İribuynuzlu mal-qaranın, eləcə də davarların baş sayında da artım var. Belə ki, inək-camışların sayı 45947 başa, qoyun-keçilər isə 190154 başa çatıb.

“Qəbələ”

# Güzəştli şərtlərlə səyyar gübrə satışı keçiriləcək




Sentyabr ayından etibarən “Aqrolizinq” ASC tərəfindən kəndlərdə mövsümi mineral gübrələrin güzəştli şərtlərlə səyyar satışına başlanılıb.

Mineral gübrələrin güzəştli şərtlərlə növbəti səyyar satışı Qəbələ rayonunda da təşkil ediləcək. Oktyabrın 11-də Çuxur Qəbələ, oktyabrın 12-də Bunud kəndlərində keçirilməsi nəzərdə tutulan səyyar satışda ətraf kəndlərin sakinləri də tələb olunan sənədləri - torpaq aktı və ya çıxarış, icra nümayəndəsindən ərizə-məlumat formasını və şəxsiyyət vəsiqəsinin surətini təqdim etməklə 70 faizlik güzəştdən yararlanaraq mineral gübrə alacaqlar.

“Qəbələ”

# Bitkiçilik məhsullarının istehsalçı qiymətləri ucuzlaşıb

Bu ilin avqustunda iyula nisbətən kənd təsərrüfatı məhsullarının istehsalçı qiymətlərində 0,9 faiz bahalaşma müşahidə edilib.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, həmin dövrdə heyvandarlıq məhsullarının istehsalçı qiymətləri 4,1 faiz bahalaşıb, bitkiçilik məhsullarının istehsalçı qiymətləri isə 2,3 faiz ucuzlaşıb.

İlin yanvar-avqust ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 5 milyard 206,7 milyon manat təşkil edib.

Onun 2 milyard 557 milyon manatı heyvandarlıq, 2 milyard 649,7 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.



Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalında 6,2 faiz, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,1 faiz, bitkiçilik məhsulları üzrə isə 9,2 faiz artım olub.